Azərbaycan təbiəti bütün möcüzələri ilə yanaşı, quşlar baxımından da heyranedicidir. Alman alimi Mixail Zukkov ölkəmizin təbiəti haqqında belə deyib: "Fərəhlə deyə bilərəm ki, sizin ölkə vəhşi heyvanların və bitkilərin növlərinə görə bütün Avropada birinci yerdə dayanır. Mən sizdə bir çox heyvanlarla bərabər, təkcə qartalın 9 növünü görmüşəm. Amma Almaniyada, təəssüflər olsun ki, bircə növünü tanıyırıq".

A) Fərəh və təəssüf hisslərinin qarşılaşdırılması
B) Azərbaycanın vəhşi heyvan və bitkilərin sayına görə Avropadan üstünlüyü
C) Heyvan növlərinin coğrafi ərazilərdəki say müxtəlifliyi
D) Elm adamlarının yaşadığı məkandan asılı olmayaraq, təbiətə vurğunluğu
E) Əcnəbi alimin Azərbaycanda olan müxtəlif heyvan növlərini görməsi

**13. Hansı cümlədə saydan düzəlmiş söz *işlənməmişdir*?**

A) Birinciliyi əldən vermək bizə yaraşmaz.
B) Birləşmiş şirkətlər iqtisadi müstəqillik qazandı.
C) Birgə başladığımız bu mübarizə hələ çox çəkəcək.
D) Birlikdə cəbhə xəttini keçmək çətin olar.
E) Birdən səmada axan ulduzlar göründü.

**14. Mətndə hansı fikir əksini *tapmamışdır*?**

Elmi-texnoloji və sosial inkişafın nailiyyətlərindən biri kimi təqdim edilən distant təhsil fasiləsiz təhsil sisteminin bir forması olaraq insanın təhsil və informasiya almaq hüququnun reallaşdırılmasına, öz peşə fəaliyyətindən ayrılmadan əsas və ya əlavə təhsil ala bilməsinə xidmət edir. Ənənəvi təhsil formalarından fərqli olaraq, distant təhsildə təhsilalan biliyə doğru deyil, bilik təhsilalana doğru istiqamətləndirilir.

A) İnsanın müxtəlif hüquqları vardır.
B) Distant təhsil işləyə-işləyə təhsil almağa imkan verir.
C) İnsanlar təhsilin müxtəlif formalarından istifadə edə bilərlər.
D) Ənənəvi təhsildə təhsilalan biliyə doğru istiqamətlənir.
E) Distant təhsil elmi-texniki inkişaf üçün zəmin yaradır.

**15. Hansı cümlələrdə ədəbi dilin iki norması pozulmuşdur?**

1. Küçə qapısında dostu ilə xeyli danışdıqdan sonra Camalın ürəyi qayıtdı yerinə.
2. Sonradan sonraya Sənəm arvadı əlini ağdan qaraya dəydirməyə qoymazlardı.
3. Sənin günahın odur ki, əvvəl-əvvəl özünü görməzliyə vurdun, sonra da gəlib korladın işləri.
4. İşğal etdiyi yerlərdə Çingiz xana tabe olmaq istəməyən kimsə yox idi.
5. O bütün söhbətləri daş səbri ilə dinləyir, cavab verməyi ağılının qırağından belə keçirmirdi.
6. Ekskovatorçu Cəlil anbardarın işlərini indi daha çox güdməyə başlamışdı.

A) 1,3,5 B) 2,4,6 C) 2,3,4 D) 2,5,6 E) 1,5,6

**16. Tərkibində eyni zamanda təyin və tamamlıq *işlənməmiş* cümləni müəyyən edin.**

A) Kübra xanımın dediyi sözlər mənə qəribə gəlirdi. *(Elçin)*
B) Qədir bir tikə pendir-çörək yedi, üstündən bir stəkan su içdi. *(İ. Məlikzadə)*
C) Gözlərindən süzülən yaşları duyurdu. *(Ə.Cəfərzadə)*
D) Zərnigar xanımın ala gözləri güzgüdə oynadı. *(İ. Şıxlı)*
E) Bayaqdan Elmanın qayıtmağını arzulayan Zərif indi onun getməyini gözləyirdi. *(Ə.Kərim)*

**17. *"Puldan başqa heç nəyi olmayan insan necə də yoxsuldur"*** *(A.Qraf)* cümləsi ilə bağlı doğru fikirdir:
A) Söz sırasına əməl olunub.
B) Mübtəda əvvəldə olmalıdır.
C) C) Tamamlıq mübtədadan sonra işlənməlidir.
D) Söz sırası iki məqamda pozulub.
E) Söz sırasına söz birləşməsi daxilində əməl olunmayıb.

**18. Sadə cümlənin şəxsə görə növləri əsasında ardıcıllığı müəyyən edin.**

- Təbrizdən ayrılmağına izin verməmişdilər.
- Şeytanın adını çək, qulağını bur.
- Qış fəsli idi.
- Ancaq onun yaşaması məni ruhlandırır.

1. müəyyən şəxsli cümlə
2. qeyri-müəyyən şəxsli cümlə
3. ümumi şəxsli cümlə
4. şəxssiz cümlə

A) 1,3,2,4 B) 2,3,4,1 C) 2,3,1,4 D) 3,4,1,2 E) 1,4,2,3

**19. Nümunədə işlənmiş feillərlə bağlı doğru fikirləri müəyyən edin.**

*Pəncərədən həyətə baxanda divar dibində eşələnən toyuqdan, əncir ağacının altında yatan ağ pişikdən başqa, bir şey görməzdin. (Mir Cəlal)*

1. Təsriflənən feil quruluşca düzəltmədir.
2. Üçü birləşmə əmələ gətirmişdir.
3. Yalnız biri qayıdış növdədir.
4. Feili sifətlər indiki zaman məzmunu ifadə edir.
5. Hamısı təsirsizdir.

A) 1,3,5 B) 1,2,4 C) 2,3,5 D) 2,3,4 E) 1,4,5

**20. Hansı cümlələrin tərkibində ismə aid qrammatik şəkilçi *qəbul etmədən* isimləşən söz var?**
1. Bu cəsur oğlan Qarabağ qazisidir.

2. Xəstə təbəssümlə həkimə minnətdarlıq etdi.
3. Bu qoçaq ən fəal təbliğatçıdır. 4. İndi sonuncu haqda fikirləşmək lazımdır.
5. O, körpəni xilas etdi.

A) 2,3,5 B) 1,4,5 C) 1,3 D) 1,2 E) 2,3,4

**21. Mətnə əsasən evfemizmlərin meydana çıxmasının səbəbi sayıla *bilməz*:**

Evfemizmlər sözlərin mənasını yumşaltmaq, onları nəzakətli və ya "təhlükəsiz" etmək məqsədilə yaranmışdır. Tabular inkişafın ilk pillələri ilə bağlıdırsa, evfemizm cəmiyyətin yüksək inkişaf pilləsində meydana çıxmışdır. Ölmək əvəzinə, dünyasını dəyişmək; qocalmaq əvəzinə, saqqalına dən düşmək; canavar əvəzinə, ağzıqara və s. evfemizmlərdir. Bəzən senzor yasağı və ya dövlət sirri ilə əlaqədar olaraq işlədilən şərti işarələr, şərti adlar da evfemizm hesab olunur.

Sosial və şəxslərarası münasibətlərdə evfemizmlərdən istifadənin əsas məqsədi həmsöhbətlə kommunikativ konfliktlərdən və uğursuz anlaşılmadan qaçmaq cəhdidir. Bu növ evfemizmlərdə adlandırma daha nəzakətli formada olur. Məsələn: kar – zəif eşidən, qulaqdan zəif; kor – gözü zəif tipli ifadələr həmsöhbətdə kommunikativ diskomfort yaratmamaq məqsədi daşıyır.

A) Fikri yumşaltmaq ehtiyacı.
B) Dövlətin müəyyən məsələləri gizli saxlamaq istəyi.
C) Tabuları aradan qaldırmaq zərurəti.
D) Senzuradan qorunmağın lazım gəlməsi.
E) Cəmiyyətin inkişafı.

**22. Mətn əsasında üslubi baxımdan doğru olanları müəyyən edin.**

Evfemizmlər sözlərin mənasını yumşaltmaq, onları nəzakətli və ya "təhlükəsiz" etmək məqsədilə yaranmışdır. Tabular inkişafın ilk pillələri ilə bağlıdırsa, evfemizm cəmiyyətin yüksək inkişaf pilləsində meydana çıxmışdır. Ölmək əvəzinə, dünyasını dəyişmək; qocalmaq əvəzinə, saqqalına dən düşmək; canavar əvəzinə, ağzıqara və s. evfemizmlərdir. Bəzən senzor yasağı və ya dövlət sirri ilə əlaqədar olaraq işlədilən şərti işarələr, şərti adlar da evfemizm hesab olunur.

Sosial və şəxslərarası münasibətlərdə evfemizmlərin istifadəsinin əsas məqsədi həmsöhbətlə kommunikativ konfliktlərdən və uğursuz anlaşılmadan qaçmaq cəhdidir. Bu növ evfemizmlərdə adlandırma daha nəzakətli formada olur. Məsələn: kar – zəif eşidən, qulaqdan zəif; kor – gözü zəif tipli ifadələr həmsöhbətdə kommunikativ diskomfort yaratmamaq məqsədi daşıyır.

1. Xalq dilinə yaxındır.
2. Söz və ifadələrin hamısı eyni üslubi funksiya daşımır.
3. İzahetməyə, şərhetməyə əsaslanır.
4. Qəzet, jurnal, eləcə də radio dilinə uyğundur.
5. Təhkiyəyə, nəqletməyə əsaslanır.

A) 2,3 B) 3,4,5 C) 2,4 D) 1,2 E) 1,3,5

**23. Mətn əsasında müəyyən etmək olar:**

Evfemizmlər sözlərin mənasını yumşaltmaq, onları nəzakətli və ya "təhlükəsiz" etmək məqsədilə yaranmışdır. Tabular inkişafın ilk pillələri ilə bağlıdırsa, evfemizm cəmiyyətin yüksək inkişaf pilləsində meydana çıxmışdır. Ölmək əvəzinə, dünyasını dəyişmək; qocalmaq əvəzinə, saqqalına dən düşmək; canavar əvəzinə, ağzıqara və s. evfemizmlərdir. Bəzən senzor yasağı və ya dövlət sirri ilə əlaqədar olaraq işlədilən şərti işarələr, şərti adlar da evfemizm hesab olunur.

Sosial və şəxslərarası münasibətlərdə evfemizmlərin istifadəsinin əsas məqsədi həmsöhbətlə kommunikativ konfliktlərdən və uğursuz anlaşılmadan qaçmaq cəhdidir. Bu növ evfemizmlərdə

adlandırma daha nəzakətli formada olur. Məsələn: kar – zəif eşidən, qulaqdan zəif;  kor – gözü zəif tipli ifadələr həmsöhbətdə kommunikativ diskomfort yaratmamaq məqsədi daşıyır.

*Evfemizmlər...*

1. ünsiyyət zamanı müsbət münasibətləri qoruya bilir.
2. sosial ədalətsizliyi aradan qaldırır.
3. uğursuz vəziyyətlərin qarşısını alır.
4. yığcam danışığa imkan yaradır.

A) 1,4 B) 2,3 C) 3,4 D) 1,3 E) 2,4

**24. Fərqləndirilmiş ifadələr əsasında Eyler-Venn diaqramındakı doğru fikirləri müəyyən edin.**




A) 1,4 B) 2,4 C) 3,4 D) 1,2 E) 2,3

**25. Mətn əsasında müəyyən etmək mümkündür:**

Tunc mis ilə qalayın qarışığıdır. Bu çox qiymətli metaldır, çünki təmiz misdən qat-qat möhkəmdir. Təbiətdə tunc yoxdur. Tuncu ilk dəfə bizim eradan 3000 il əvvəl Aralıq dənizinin şərq sahilində əldə etməyə başlayıblar. Daha 1000 il sonra tunc Avropada da meydana çıxdı.

1. Tuncun qiymətli olmasının səbəbini
2. Misin tərkibində tunc olduğunu
3. Süni yolla metal alındığını
4. Dənizdən saf metal çıxarıldığını
5. Avropada da tunc olduğunu

A) 1,3,5 B) 3,4 C) 1,2,4 D) 2,5 E) 4,5

**26. Altından xətt çəkilmiş sözlərə aiddir:**

*Tanınmışlar da zəlzələ bölgəsinə getdilər.*
*Məşhurlar beynəlxalq təşkilatlara müraciət etdilər.*

1. Bir-biri ilə sinonimdir.
2. Fərqli tələffüz olunur.
3. Yerinə görə bir-birinin qarşılığı ola bilər.
4. Quruluşca sadədir.
5. Əşyanın əlamətini bildirən nitq hissəsidir.

A) 2,3 B) 3,4,5 C) 1,2,4 D) 2,5 E) 1,5

**27. Mətnin üslubu ilə bağlı *yanlış* fikirlərdir:**

*Biri susuzluqdan can verən zaman*
*Deyirdi, xoşbəxtdir suda boğulan.*
*Bir yolçu soruşdu: "Fərq varmı bunda,*
*Ya quruda olsun adam, ya suda?"*
*Can verən dedi ki, məqsəd başqadır,*
*Mənim susuzluğum ancaq eşqədir.*
*Aşiq ol, cananın ətəyindən tut,*
*Canını qurban ver, aləmi unut.*

1. Dramatik əsərlərlə eyni üslubdadır.
2. Standart forması olan üsluba aiddir.
3. İnformativ funksiya daşıyan sözlərdən istifadə edilməyib.
4. Aid olduğu üslub aparıcı üslublardan biridir.
5. Altından xətt çəkilmiş misraların hər ikisində bədii təzaddan istifadə edilib.

A) 1,2 B) 1,3,5 C) 2,3,5 D) 4,5 E) 2,4

**28. Hansı cümlədə fərqləndirilmiş söz mənasına uyğun olaraq mötərizədə verilmiş sözlə əvəz edilə bilər?**

1. ***Təlqin*** (təşviq) vasitəsilə insanların hərəkətlərinə təsir etmək mümkündür.
2. Bu gün ***ekoloji*** (qlobal) problemlərin həlli vacib məsələlərdən biridir.
3. Yazıçı üçün azadlıq xüsusilə vacibdir, onun üçün bu, ***ehkamdır*** (qanundur).
4. Nigarançılığı artıqca ***iztirab*** (qorxu) hissi qəlbinə hakim kəsilirdi.
5. Belə bir mövzuda yazmaq xüsusi səriştə, yanaşma, ***erudisiya*** (dünyagörüşü) tələb edir.
6. Eynəkli kişi öz aralarında pıçıldaşan adamları ***təşəxxüslə*** (təkəbbürlə) süzürdü.

A) 1,3,4 B) 2,4,6 C) 2,5,6 D) 1,2,4 E) 3,5,6

**29. *İdi, imiş* köməkçi sözləri (hissəcikləri) ilə bağlı uyğunluğu müəyyən edin.**

1. Həm bitişik, həm də ayrı yazıla bildiyi sözdür.

2. Bitişik yazılmadığı sözdür.

a. gəl
b. gəlməli
c. oxuya
d. sadə
e. danışdı

A) 1-a; 2-d,e
B) 1-c,d; 2-a,b
C) 1-e; 2-c,b
D) 1-b; 2-a,e
E) 1-b,c; 2-d

**30. Cümlələrə əsasən müqayisə cədvəlindəki *uyğunsuzluğu* müəyyən edin.**

▲ Günəşin şüaları pəncərədən içəri düşdü, Mehmanın gözləri qamaşdı.

■ Tamaşa sona çatdı, hərə evə bir cür təəssüratla qayıtdı.

<table>
<tr><td>▲</td><td>■</td></tr>
<tr><td>1. II hissədə baş verən hadisə I hissədəki hadisənin nəticəsidir.</td><td>2. Tərkib hissələri arasında tabesizlik əlaqəsi var.</td></tr>
<tr><td colspan="2">3. Komponentləri müəyyən şəxsli sadə cümlələrdən ibarətdir.<br>4. Cümlələrin xəbərləri şühudi keçmiş zamanda olan feillə ifadə olunmuşdur.<br>5. Komponentləri nəqli cümlələrdir.</td></tr>
</table>

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**31. Qoşma janrında olan şeirlərin hamısında eyni olur:**

1. mövzu
2. vəzn
3. bəndlərin sayı
4. misradakı hecaların sayı

A) 3,4 B) 1,2 C) 2,3 D) 2,4 E) 1,3

**32. M. Arazın “Əsgər məktubu” şeirində daha qabarıq ifadə olunur:**

A) vətən keşikçisinin tərənnümü
B) insanların birliyi
C) məktublardakı narahatlıq
D) silahın gücü
E) düşmən üzərində qələbə

**33. “Koroğlu” dastanındakı Keçəl Həmzə obrazı ilə bağlı doğru fikirləri müəyyən edin.**

1. Dəyirmançını aldadaraq onun yerinə keçməyə nail olur.
2. Çənlibel adamlarından insani münasibət gördükdə Hasan paşaya verdiyi sözü unudur.
3. İşgüzarlığını görən Çənlibel xanımlarının və dəlilərin ona hörməti artır.
4. Hasan paşadan bəylik almaq üçün Qıratın dalınca Çənlibelə yollanır.

A) 1,3 B) 1,2 C) 2,3 D) 3,4 E) 1,4

**34. S. S. Axundovun “Nurəddin” hekayəsinin məzmunu ilə bağlı *uyğunsuzluğu* müəyyən edin.**

1. Hacı Nəsir – ikinci evliliyinin yanlış olduğunu anlayır.
2. Gülpəri – Hacı Nəsirin ölümündən sonra xidmətçilərlə kobud rəftar edir.
3. Bahar – Gülpəri ilə mübarizənin mümkünsüz olduğunu anlayıb evdən gedir.
4. Əmiraslan – atasının ümidlərini doğrultmur.
5. Cənnətəli – küçədə diləndirmək üçün uşaq tapdığına sevinir.

A) 1,5 B) 1,2 C) 3,5 D) 3,4 E) 2,4

**35. M. Müşfiqin “Həyat sevgisi” şeirində əksini *tapmamışdır*:**

A) təbiət təsvirləri
B) narahat düşüncələr
C) xilas olmağa çağırış

D) həyata bağlılıq
E) dostlara sevgi

**36. S. Rüstəmin "Təbrizim" şeiri ilə bağlı doğru fikirləri müəyyən edin.**

Lirik qəhrəman ...

1. Təbrizin həm xoş, həm də kədərli halına şərikdir.
2. yadellilərə qarşı mübarizənin ön sıralarındadır.
3. nikbin əhvali-ruhiyyədədir.
4. Təbrizin dərdlərindən xəbərdardır.
5. iki qardaşı ayrı salanları lənətlə yad edir.

A) 2,3,5 B) 1,2,5 C) 1,3,4 D) 3,4,5 E) 1,2,4

**37. İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərində əksini tapmışdır:**

1. sənətkarın xeyirxah əməlləri
2. çarizmin müstəmləkəçilik siyasəti
3. qadın hüquqsuzluğu
4. xalqın birliyi zərurəti
5. müharibənin fəsadları

A) 1,3,5 B) 1,2,5 C) 2,3,4 D) 3,4,5 E) 1,2,4

**38. M. Füzulinin "Leyli və Məcnun" əsərinin kompozisiyasına aid olsa da, əsərin süjetinə aid d*eyil:***
A) Əsas surətlərin məktəb həyatı
B) Ananın narahatlığının səbəbi
C) Rum zəriflərinin Füzulidən xahişi
D) Qeysin anadan olması ilə bağlı məlumat
E) Leylinin anasının narahatlığı

**39. Nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.**

*Yaxşı gündə sellər kimi çağlayan,*
*Yaman gündə dərd, qəm çəkib ağlayan,*
*Qəlbi qəlbə, gözü gözə bağlayan*
*Məhəbbətdir, məhəbbətdir, məhəbbət. (M. Azaflı)*

1. İnversiya və təkrirdən istifadə olunmuşdur.
2. Qoşmanın orta bəndlərindən biridir.
3. Təşbeh, metafor və bədii təzad fikrin təsir gücünün artmasına xidmət edir.
4. Təsvir və təhkiyə əsasında yaradılmışdır.

A) 1,3 B) 1,2 C) 2,3 D) 3,4 E) 1,4

**40. N. Gəncəvinin "Sultan Səncər və qarı" əsəri ilə bağlı uyğunluğu müəyyən edin.**

1. Sultan Səncər
2. Darğa

a. Qarını cinayətkara dəstək olmaqda günahlandırır.
b. Xalqı cəhalətdə saxlamağa çalışır.

c. Yetimlərin malını mənimsəyir.
d. “Talançı” adlandırılır.
e. İşini sərxoş vəziyyətdə icra edir.

A) 1 – b,d; 2 – a

B) 1 – a,c; 2 – b, d

C) 1 – c,e; 2 – a

D) 1 – c,d; 2 – a,e

E) 1 – c; 2 – b,e

**41. C.Cabbarlının “Oqtay Eloğlu” əsərində Firəngiz səhnədə öldürülür. Oqtaya görə, Firəngizi öldürəni kim mühakimə etməlidir?**

A) tamaşaçılar
B) Firəngizin qohumları
C) məhkəmə
D) xalq
E) teatrın rəhbərliyi

**42. Q. Zakirin əsərlərinə əsasən Eyler-Venn diaqramında ? (sual) işarəsinin yerinə uyğun fikirləri müəyyən edin.**

**“Durnalar”** **“Badi-səba, mənim dərdi-dilimi...”**




1. Lirik qəhrəman istəklisi ilə birbaşa ünsiyyətdə deyil.
2. Müraciət obyektindən istifadə olunub.
3. Ehtiyatlı olmaq tövsiyə olunur.
4. Lirik qəhrəman ittihamçı kimi çıxış edir.

A) 3,4 B) 1,4 C) 2,3 D) 1,3 E) 1,2

**43. “Dərzi şagirdi Əhməd” əsərinin məzmuna aiddir:**
1. problemin bir gənc tərəfindən həll olunması
2. qaravəlli janrından da istifadə edilməsi
3. çətin sınaqlarla üzləşmə
4. şah qızı ilə yoxsul oğlanın məhəbbəti
5. dialoqlardan istifadə edilməsi

A) 2,3,4 B) 1,5 C) 2,5 D) 1,3,4 E) 1,2,4

**44. M. F. Axundzadənin “Aldanmış kəvakib” povestinə əsasən cədvəldəki *yanlış* fikirləri müəyyən edin.**

| | Şəxs | Səbəb | Nəticə |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | Axund Səməd | Münəccimbaşı ilə ədavəti var. | Münəccimbaşını öldürtməyə çalışır. |
| 2. | Mirzə Möhsün | Qoşun əhlinin məvacibinin verilməsinin qarşısını alır. | Dövlət xəzinəsinin mədaxili artır. |
| 3. | Yusif Sərrac | Özünü ulduzların qəzəbindən qorumaq istəyir. | Əvvəlki şahın əyanları Ərk qalasına salınır. |
| 4. | Miraxur | Yay fəslində padşahlıq atlarını yaylağa aparır. | Xalq əzab-əziyyətə düçar olur. |
| 5. | Mövlana Cəmaləddin | Ulduzların təsirini Şah Abbasdan uzaqlaşdırmağın mümkünlüyünü düşünür. | Yusif Sərracın hakimiyyətə gətirilməsini təklif edir. |

A) 1,3,5 B) 1,2 C) 2,3,5 D) 3,4 E) 1,4

**45.** ***Milli-mənəvi dəyərlərə hörmət və ehtiram bu obrazı qisasdan uzaqlaşdırıb ucaldır, humanizmi ən yüksək dəyər səviyyəsinə qaldırır.*** **Bu fikirlər hansı obraz haqqındadır?**

A) Yusif şah *(M. F. Axundzadə. "Aldanmış kəvakib")*
B) Ana *( S. Vurğun. "Ananın öyüdü")*
C) Səlma *(H. Cavid. "Ana")*
D) Zəhrabəyim ana *(C. Məmmədquluzadə. "Ana")*
E) Həmidə xala *(Anar. "Keçən ilin son gecəsi")*

**46. Ç.Aytmatovun "Əsrə bərabər gün" romanının baş qəhrəmanına aiddir:**

1. Onun timsalında ziyalı bir insanın mənəvi böyüklüyü təqdim olunur.
2. Zəngin həyat təcrübəsi var, müharibədə iştirak etsə də, müxtəlif vəziyyətlərlə qarşılaşsa da, həyat mövqeyi dəyişməmişdir.
3. Milli hisslərdən uzaqlaşmış, soykökünə yad olmuş insanlara səhvlərini etiraf etdirməyə nail olur.
4. Ölümdən sonrakı həyatında əfsanəvi çevrilmə baş verəcəyinə ümid edir.
5. Dostunun vəsiyyətini yerinə yetirməyə çalışır.
6. Dəfn günü qarşılaşdığı manqurtlar onun insanlığın gələcəyinə olan inamına ağır zərbə vurur.

A) 1,3,4,6 B) 2,4,5 C) 1,2,5 D) 2,3,4,6 E) 1,4,5,6

**47. S. Vurğunun "Vaqif " pyesində oğlu Əli bəylə zindana salınan Vaqif həyatından narazılıq edərkən öz əsərindən bir parça söyləyir. Həmin parça Vaqifin hansı əsərindəndir?**

A) "Bax" B) "Görmədim" C) "Hayıf ki, yoxdur" D) "Küsmüşəm" E) "Durnalar"

**48. M. Şəhriyarın "Heydərbabaya salam" əsərinin forma xüsusiyyətləri ilə bağlı *yanlış* fikri müəyyən edin.**

A) Bütöv söz prinsipinə əsaslanan vəzndə yazılıb.
B) İkiyə parçalanmış xalqın, torpağın harayı da var.
C) Bəndlər şəklində, beşlik şeir şəklində yazılmışdır.
D) İki hissədən ibarətdir.
E) Əvvəldən axıradək epik təhkiyə üstünlük təşkil edir.

**49. Hansı əsərin ideyasının əsasında *"Nəsillər arasındakı qırılmazlığın qorunması mənəviəxlaqi cəhətdən insan həyatının mənasıdır"* fikri dayanır?**

A) "Qaytar ana borcunu" *(Ə. Kərim)*
B) "Dəli Kür" *(İ. Şıxlı)*
C) "Açıq kitab" *(Mir Cəlal)*

D) “Zəhər” *(İ. Hüseynov)*
E) “Keçən ilin son gecəsi” *(Anar)*

**50. Hansı əsərin adında epitet və metonimiya işlənmişdir?**
A) “Əsir Azərbaycanım” *(A. İldırım)*
B) “Aldanmış kəvakib” *(M. F. Axundzadə)*
C) “Gələcək gün” *(M. İbrahimov)*
D) “Səsli qız” *(Ə. Cavad)*
E) “Açıq kitab” *(Mir Cəlal)*

**51.** *“Səhvlər üzərində iş apararkən şagird müəllimdən səhvlərinin izahını soruşduqda müəllim şagirdə yönəldici suallar verir və səhvini özünün müəyyənləşdirməsinə şərait yaradır”.* **Müəllimin bu fəaliyyətinin məqsədi barədə deyilən fikirlərdən biri doğrudur?**
A) Müəllim şagirdin sağlam mənəvi - psixoloji mühitdə öyrənməsini təmin etməyə çalışır.
B) Müəllimin yönəldici sual verməsi şagirddə özünüqiymətləndirmə bacarığı formalaşdırır.
C) Şagirdin öz səhvini düzəltməyə şərait yaratmaqla düzgün nəticə çıxarmasına və daha çox öyrənməsinə şərait yaradır.
D) Gələcəkdə öyrənmə prosesində əhəmiyyətli olduğu üçün müəllim şagirdin deklarativ biliklərini möhkəmlətməyə çalışır.
E) Şagirdin yaradıcı təfəkkürünü inkişaf etdirir.

**52. Verilənlərdən biri konstruktiv rəy *deyil*:**
A) Əhsən! Cavablarını akademik cəhətdən yaxşı əsaslandırırsan, lakin həyatdan nümunə gətirməkdə çətinlik çəkirsən. Çalış ki, oxuduğun informasiyanı həyatla əlaqələndirəsən. Onda daha yaxşı nəticələr əldə edə bilərsən.
B) Afərin! Suala ən doğru cavabı sən verdin, verdiyin cavab ətraflı və anlaşıqlı idi. Sinif yoldaşların üçün də faydalı oldu. Gələcəkdə də məsələlərə bu şəkildə yanaş.
C) Komanda işində əməkdaşlığın yaxşıdır, yoldaşlarını sona qədər dinləyirsən, lazım gələndə kömək edirsən, bir az səs tonunu idarə etməyi öyrənməyə ehtiyac var. Bəzən çox ucadan danışırsan, buna diqqət elə.
D) Səfəvilər dövləti haqqında ətraflı məlumat verdin, lakin hadisələrin ardıcıllığını bəzən pozurdun. Nitqini təşkil edərkən xronologiyaya və səbəb-nətivə əlaqələrinə diqqət yetir.
E) Afərin! Hərfləri düzgün yazırsan, bir az maili xətləri çəkməkdə çətinlik çəkirsən. Bunun üzərində işlə və çoxlu məşq elə.

**53.** *Müəllim şagirdlərdə dinləyib-anlama, nəticə çıxarma, ümumiləşdirmə, sual tərtibetmə, fikir əsaslandırma və s. yumşaq bacarıqları eyni anda inkişaf etdirmək istəyir.* **Bu zaman hansı iş formasından istifadə etməsi səmərəli olar?**
A) BİBÖ
B) Beyin həmləsi
C) Klaster
D) Debat
E) 4N1KH

**54.** ***Yanlış*** **fikri müəyyənləşdirin.**
A) Öyrənmə fəaliyyətləri qoyulan təlim nəticələrinə çatmaq üçün dərsin hər bir mərhələsində sinifdə görülən işləri təsvir edir.
B) Müəllim təlim nəticəsinə uyğun olaraq sinif fəaliyyətlərinin bütün sinif, kiçik qruplar və ya fərdi iş formasında olacağına əvvəlcədən qərar verməlidir.

C) Öyrənmə fəaliyyətləri dərsin son məqsədi deyil, ona çatmaq üçün yerinə yetirilən tapşırıqlar, görülən işlərdir.
D) Öyrənmə fəaliyyəti təlim nəticələrinə və qiymətləndirmə meyarlarına xidmət etməlidir.
E) Öyrənmə fəaliyyətində şagirdlərin təlim nəticələrinə nail olub - olmadığını nə ilə və necə ölçə biləcəyini qeyd edir.

**55.** *Müəllim dərsini "Zərərli vərdişlərin insan orqanizminə təsiri" mövzusu əsasında təşkil edir. Daha sonra şagirdləri qruplara bölür və növbəti dərs onlara zərərli vərdişlərdən uzaqlaşma yollarını əks etdirən plakat hazırlamağı tapşırır.* **Bu zaman müəllim hansı inteqrasiyanı reallaşdırmış olur?**

A) Fəndaxili (üfüqi)
B) Fəndaxili (şaquli)
C) Fənlərarası/fənnüstü
D) Yalnız fənnüstü
E) Fəndaxili və fənlərarası

**56.** *"İki şagird arasında konflikt yaranmışdır. Şagirdlərdən birinin valideyni tələb edir ki, digər şagird sinifdən çıxarılsın".* **Bu situasiyada müəllimin atdığı hansı addım doğru hesab edilə bilər?**
A) Müəllim ümumi valideyn iclası keçirir və bu problemi hamı ilə birlikdə həll etməyə çalışır, çünki digər valideynlərin sözünün daha təsirli olacağını düşünür.
B) Özü problem həllinə çalışmadan şagirdləri və onların valideynlərini direktorun yanına aparır.
C) Şagirdlərin problemini bütün sinfin şagirdləri ilə müzakirə edir.
D) Müəllim şagirdin sinifdən çıxarılmasını tələb edən valideynlə fərdi şəkildə danışır və onda empatiya hissi yaratmağa çalışır.
E) Müəllim bu məsələni həmin dəqiqə pedaqoji şuraya çıxardır və müzakirəsini tələb edir.

**57.** *"Müəllim şagirdlərə vaxtlarını səmərəli idarə etməyi öyrətmək üçün hər gün gündəlik rejimlərini hazırlamağa, daha sonra bu rejimə riayət edib-etmələrini müzakirə etməyə sövq edir".*
**Tapşırıq haqqında verilmiş hansı fikir *yanlışdır*?**
A) Tapşırıq şagirddə metakoqnitiv bilik formalaşdırır.
B) Tapşırıq şagirdin tənqidi düşüncəsini inkişaf etdirir.
C) Vaxtın səmərəli idarəedilməsi bacarığını formalaşdırmağa xidmət edir.
D) Müəllim şagirddə özünüqiymətləndirmə bacarığı formalaşdırır.
E) Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirməyə xidmət edir.

**58. Hansı fəaliyyət effektiv müəllim-şagird münasibətlərinin yaranmasına mane ola bilər?**
A) Şagirdin uğursuzluqlarını qeyd edərkən onun həll yollarını göstərmək
B) Digərlərini həvəsləndirmək üçün nəticələri yüksək olan şagirdi hər zaman sinfə nümunə göstərmək
C) Şagirdlərlə ünsiyyət zamanı onların mənfi cəhətləri ilə yanaşı müsbət tərəfləri barədə də söhbətlər aparmaq
D) Şagirdlərin problemləri ilə maraqlanmaq, onlara psixoloji dəstək göstərmək
E) Sinifdə yarana biləcək hər hansı bullinqin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər təşkil etmək

**59. Hansı tapşırıq açıq tiplidir?**
A) Poemanın əsas ideyasını müəyyənləşdirin.
B) Əsərdəki obrazların xüsusiyyətlərini müəyyənləşdirin.
C) Əsərin baş qəhrəmanına münasibət bildirin.
D) Cümləni sintaktik təhlil edin və cümlə üzvlərinin ifadə vasitəsini söyləyin.
E) Ədibin yaradıcılığının əsas xüsusiyyətlərini söyləyin.

**60.** *"C. Məmmədquluzadənin "Poçt qutusu" əsərində Novruzəli obrazını təsvir etməklə müəllif nəyi demək istəyib?"* **Tapşırıq idrak taksonomiyasının hansı mərhələsinə uyğundur?**

A) təhlil etmək

B) tətbiq etmək

C) anlamaq və tətbiq etmək

D) dəyərləndirmək

E) yaratmaq